




Nəriman
ƏBDÜLRƏHMANLI

## Şəms Təbrizi - 840

# Bir qeybin anatomiyası

## (“Şəms” roman-qeybnaməsinə sözardı)

(əvvəli ötən sayımızda)

***Mənim Şəmsim Haqqa çatmaq üçün çox oxumalı deyil, çox gəzməli olduğunu dərk eləyib mürşidlərə müridlikdən boyun qaçırır, Təbrizdən yola çıxır, Ərbildə və Bağdadda şeyxlərlə ünsiyyətə girir, Dər-əs-Salamda ona Allahın dərgahına yetişmək üçün altı qapıdan keçməli olduğu, üstəlik, üstəlik, bunu Can Dostunu tapıb gerçəkləşdirə biləcəyilə bağlı vəhyi gəlir...***

***Mənim Şəmsim Xəlifənin moğol təhlükəsinə qarşı Əyyubi məliklərkiylə dil tapmaq üçün göndərdiyi Şeyx Şihabəddin Sührəvərdinin həmsöhbəti kimi getdiyi Şamda ilk dəfə Can Dostunun nəfəsini duyur: həmin vaxt o şəhərdəki mədrəsədə oxuyan, atasının yerinə təkkə şeyxi olmağa hazırlaşan Molla Cəlaləddinlə üz-üzə gəlir, amma bir-birinin varlığını duysalar da, qovuşmaq üçün “bişmədiklərinə” görə, həmin məqamda bayılırlar...***

Mənim Şəmsim Hələbdən keçir, Qeysəriyyədə Surətini – Əxi Evranın müridi Təbrizli Şəmsi – tapır, əxilər aləminə bələd olur, Ərzurumdakı mədrəsədə dərs deyir, moğol basqını zamanı Ərzincana köçməli olur, təhlükə Qeysəriyyənin başı üstünü alanda özünü Surətinə çatdırır...

Mənim Şəmsim Surətinin xahişiylə Malatyaya yolanır, qoşun yığmaq üçün gedən vəzir Şəmsəddin İsfahaniyə moğol təhlükəsinin lap yaxınlaşdığını xəbər verir, amma Qeysəriyyənin talan edilməsinin qarşısını almaq mümkün olmur...

Mənim Şəmsim daha sonra Surətinin təmənnasıyla Konyaya gedir ki, Karakoruma yola düşməyə hazırlaşan vəzir Cəlaləddin Karataya əsir götürülmüş bacıların azad olunmasıyla bağlı xahişini, həm də Molla Cəlaləddinə zindanda olan Əxi Evranın əvf edilməsi barədə təvəqqesini yaxın ünsiyyətdə olduğu sultana çatdırsın...

### 6. Bir ölümün yeddi versiyası

“İki ümmanın qovuşması” da elə o məqamda baş verir...

Bağdaddan bəri Can Dostunu arayan Şəms o məqamacan həmin bəndənin məhz Molla Cəlaləddin oduğunu bilmir: hər şey – Şəmsəddinin “bişirməyə”, Cəlaləddininsə“bişməyə” hazır məqama yetişməsi - qarşılaşma - anında ayan olur...

Şəms nə özünü mürşid, Can Dostunu mürid sayır, onun İlahi missiyası Molla Cəlaləddini kütlənin içindən çıxarmaq, Allah Məşuquna çevirməkdi ki, bunu da bacarır: xəlvətdən çıxan Cəlaləddin mollalıqdan, şeyxlikdən, müdərrislikdən əl çəkib üzünü Haqqa tutur, dodaqlarından inci kimi şeirlər tökülür...

***Şəms bu yolda ayrılığın eşqi körüklədiyini yaxşı dərk eləyir, Cəlaləddini üç dəfə sınağa çəkir, onun Can Dostunu geri qaytarmaq üçün hər şeyə hazır olduğunu duyanda da əsl ayrılıq məqamının yetişdiyini anlayır...***

Şübhəsiz, Şəms Təbrizinin ölümü də adi - yəni, Can Dostunun oğlu, Kimya xatunda gözü olan, kütlənin qızışdırdığı Alaədinin intiqamı, yaxud moğolların həmləsi, ya da Ələmut fədaisinin qəsdi - ola bilməzdi...

Şəms Təbrizi qeybə çəkilməliydi ki, ömrü boyu yol gəldiyi vəzifəsini – Haqqa yetişmək missiyasını – İlahi məqamda tamamlasın...

Bu səbəbdən, Şəmsin ölümü haqqında yeddi nəfər yeddi versiya danışır – o versiyalardan hansı daha ağlabatandı, buna isə oxucu özü qərar verir...

### 7. Bizim Şəmsimiz

Şəms Təbrizi nə qədər bizimdi, yəni, nə qədər Azərbaycan türk düşüncəsinə, Azərbaycan mədəniyyətinə mənsubdu?

Bu barədə nə qədər axtarış apardımsa, sevindirici bir nəticəyə rast gələ bilmədim: nə haqqında sanballı araşdırma aparılıb, nə yubileyi keçirilib, nə adı küçələrə verilib...

Nizami, Şah İsmayıl Xətayi, Tufarqanlı Abbas, Məhəmmədhüseyn Şəhriyar... kimi, Şəms Təbriziyə də sahib çıxmasaq, onun haqqını qaytarmağa çalışmasaq, zamanın qoynunda qeyb ola bilər...

“Məqalat”ın nəşri, Məsiağa Məhəmmədinin məlum sxem hüdudlarında kiçikhəcmli “Şəms və Mövlana” araşdırması, Elbəyi Cəlaloğlunun “Eşq dənizləri qovuşanda” dərvişnaməsi, Səadət Şıxıyeva və Könül Hacıyevanın elmi məqlələri... hələ dəryadan, cəmi cümlətanı, bir neçə damcıdı...

Türkiyədə Şəms Təbrizi haqqında, az qala, bir kitabxanalıq kitab nəşr olunub, ən azı, bunu örnək kimi qəbul eləməliyik...

2016-cı ildə Xoy şəhərində Beynəlxalq Şəms Təbrizi Qurultayı keçiriləndə alimlərimizin iştirak eləyib-eləmədiklərini, həmin ərəfədə forumun keçirilməsinə etirazını bildirib, Şəms Təbriziyə qarşı homoseksualizm və Mövlananın namusuna təcavuz eləməklə bağlı ittiham irəli sürən fars axund Əli Safi İsfahaniyə layiqli cavab verilib-verilmədiyini də bilmirəm...

***2025-ci ildə Şəms Təbrizinin 840 illik yubleyidi, AMEA, yəni, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu sanballı araşdırmalar aparılmasına, dövlət səviyyəsində tədbir keçirilməsinə, TÜRKSOY xəttiylə 2025-ci ilin“Mövlana Şəmsəddin Təbrizi ili” elan edilməsinə, hətta bu faktın YUNESKO məqamına çatdırılmasına nail olacaqlarını gözləyirdim...***

***Hər halda, böyük mütəfəkkirimizə sahib çıxmaq üçün daha bir fürsət yaranmışdı...***



*Şəms Təbrizi nə qədər bizimdi, yəni, nə qədər Azərbaycan türk düşüncəsinə, Azərbaycan mədəniyyətinə mənsubdu?*
*Bu barədə nə qədər axtarış apardımsa, sevindirici bir nəticəyə rast gələ bilmədim: nə haqqında sanballı araşdırma aparılıb, nə yubileyi keçirilib, nə adı küçələrə verilib...*
*Nizami, Şah İsmayıl Xətayi, Tufarqanlı Abbas, Məhəmmədhüseyn Şəhriyar... kimi, Şəms Təbriziyə də sahib çıxmasaq, onun haqqını qaytarmağa çalışmasaq, zamanın qoynunda qeyb ola bilər...*